**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN DRAMATURGİYASINDA “ATALAR VƏ OĞULLAR” PROBLEMİ (XIX ƏSRİN SONU-XX ƏSRİN ƏVVƏLİNDƏ)

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Aygün Hidayət qızı Zəkiyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2022**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Azərbaycan ədəbiyyatı tarixi" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, professor<br>**Qara Mustafa oğlu Namazov** |
| | filologiya elmləri doktoru, professor<br>**Nizaməddin Şəmsəddin oğlu Şəmsizadə** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, professor<br>**Yədulla Bəbir oğlu Ağazadə** |
| | filologiya elmləri doktoru, professor<br>**Leyla Məcid qızı İmaməliyeva** |
| | filologiya üzrə fəlsəfə doktoru<br>**Afət Əbdülhəsən qızı Qədirova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ____________ | AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor<br>**Rafael Baba oğlu Hüseynov** |
| Dissertasiya şurasının elmi katibi: ____________ | filologiya üzrə fəlsəfə doktoru,<br>**İlhamə Mürsəl qızı Gültekin** |
| Elmi seminarın sədri: ____________ | filologiya elmlər doktoru, professor<br>**Cəlil Qərib oğlu Nağıyev** |

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Hər bir xalqın mənşəyi və təkamülü, adət-ənənələri, öz vətəni və milli varlığı uğrunda mübarizələri onun mənəvi yaddaşında – mifində, eposunda, folklorunda, yazılı ədəbiyyatında əksini tapır. Tarixi proseslərin gedişi, zəmanənin dəyişməsi, epoxaların bir-birini əvəz etməsi müəyyən dövrlərdə bir-birinə asanlıqla güzəştə getməyən qütbləri təmsil edən insanların, ictimai qrupların – mühafizəkar görüşlü "atalar"la yeniliyi təmsil edən "oğullar"ın münaqişəsinə çevrilir. Bu mənada, bədii ədəbiyyatda "atalar və oğullar" problemi tarixi yaddaşın qədim qatlarından qaynaqlanır.

Bədii ədəbiyyatda "atalar və oğullar" probleminin qoyuluşuna iki baxış bucağından yanaşmaq mümkündür: a) ailə münasibətləri çərçivəsində; b) dəyişən zaman fonunda cəmiyyət və ictimai münasibətlər kontekstində.

Birinci halda ailədaxili münasibətlərdə fərdlərin (məsələn, övladla valideynin) münaqişəsi öndə olur, ikinci halda isə tarixi prosesi hərəkətə gətirən ictimai qüvvələrin, onların daşıdıqları dəyərlərin qarşıdurması maraq doğurur.

"Atalar və oğullar" problemini bədii ədəbiyyat daha çox mənəvi-əxlaqi problem kimi təcəssüm etdirir.

XIX əsrdə Azərbaycan tarixində baş verən ictimai-siyasi proseslər, türk və İslam mədəniyyətində mühüm yer tutan Azərbaycanın yeni siyasi və mədəni coğrafiyaya inteqrasiya olunması həm cəmiyyətin, həm də bədii düşüncənin qarşısında yeni vəzifələr qoymuşdu.

XIX əsrin ikinci yarısında neft sənayesinin inkişafı fonunda yaranan kapitalizm və sənaye inqilabı milli özünüdərk prosesinə təkan verirdi. Milli burjuaziyanın (H.Z.Tağıyev, A.M.Nağıyev, Ş.Əsədullayev) formalaşması, Qafqazda "dünya şəhəri" statusunun Tiflisdən Bakıya keçməsi, burada milli təsisatların – milli mətbuatın təşəkkülü və inkişafı, milli teatrın yaranması, dünyəvi təhsilə münasibətin dəyişməsi, eləcə də Rusiyada və Avropada təhsil almış yeni ziyalı nəslinin yetişməsi bədii ədəbiyyatın, xüsusən dramaturgiyanın M.F.Axundzadədən sonrakı yeni mərhələsinin

təkamülünə yol açmış oldu.

Azərbaycan maarifçiliyi ilkin mərhələdə azərbaycançılıq ideologiyasının təşəkkülü ilə müşayiət olunur və tezliklə milli ideologiyanın hüdudları genişlənir. Türkçülük və azərbaycançılıq məfkurələri, realizm və romantizm ədəbi cərəyanları, "Molla Nəsrəddin", "Füyuzat" ədəbi məktəbləri – bədii ədəbiyyatda bir-birini tamamlayan iki ədəbi istiqamət yaranır və inkişaf edir. N.Vəzirovun, C.Məmmədquluzadənin, N.Nərimanovun, Ə.Haqverdiyevin, Ü.Hacıbəylinin realist, H.Cavidin, C.Cabbarlının romantik dram əsərləri ədəbi mühiti 30 il ərzində – 1890-1920-ci illərdə görünməmiş bir dərəcədə zənginləşdirir. Bu, milli dövlətçiliklə tamamlanan əsl milli-mənəvi intibah dövrü idi.

Həmin prosesdə XIX əsrin 30-cu illərindən təşəkkül tapmağa başlayan maarifçiliyin rolunu qeyd etmək lazımdır. Tədqiq olunan epoxa milli maarifçiliyin həm ictimai-siyasi sahədə, həm də ədəbiyyatda, xüsusən dramaturgiyada bəhrələr verdiyi dövr idi. Ona görə də araşdırmanın mövzusu tarixi-ictimai və ədəbi-nəzəri baxımdan aktualdır. Azərbaycan dramaturgiyası tarixində məhsuldar olan bu mərhələni yeni məfkurə ilə, obyektiv tarixilik prinsipi ilə təhlil etmək nəzəri baxımdan tədqiqatın başlıca vəzifəsidir.

Azərbaycan ədəbiyyatında maarifçi realizmin, eləcə də onun aparıcı janrı olan dramaturgiyanın aktuallaşdırdığı əsas məsələlərdən biri "atalar və oğullar" probleminin qoyuluşu idi.

M.F.Axundzadə dramaturgiyasının ənənələri zəminində N.Vəzirov, C.Məmmədquluzadə, N.Nərimanov, Ə.Haqverdiyev, S.S.Axundov, Ü.Hacıbəyli və b. sənətkarlar Azərbaycan dramaturgiyasınlın parlaq nümunələrini yaratdılar.

N.Vəzirovun "Müsibəti-Fəxrəddin", "Yağışdan çıxdıq, yağmura düşdük", C.Məmmədquluzadənin "Ölülər", "Anamın kitabı", N.Nərimanovun "Nadanlıq", "Nadir şah", Ə.Haqverdiyevin "Bəxtsiz cavan", M.S.Ordubadinin "Dinçilər" əsərlərinin əsas dramatik konflikti mühafizəkar atalar və yenilikçi oğullar, başqa terminlə desək, konservatorlar və novatorlar arasındadır. Bu mövzu Azərbaycan dramaturgiyasının bədii-fəlsəfi mahiyyətini, onun poetikasını və estetikasını müəyyən etdiyi üçün ədəbi-nəzəri

baxımdan aktualdır. Bədii söz tarixinə nəzər salanda məlum olur ki, “atalar və oğullar” probleminin qoyuluşu hər bir dövrün aparıcı məfkurəsinə əsaslanıb. Məsələn, “Kitabi-Dədə Qorqud”da bu problemin əsas məsələsini qəhrəmanlıq, Nizami Gəncəvinin yaradıcılığında İntibah humanizmi, Füzulinin yaradıcılığında insanları kamilliyə təşviq edən təsəvvüf fəlsəfəsi təşkil edir. Aparıcı məfkurəsi maarifçilik olan XIX əsr Azərbaycan ədəbiyyatında isə “atalar və oğullar” probleminin qoyuluşunda həlledici amil dövrün maarifçilik ideyalarıdır. Burada janrın bədii düşüncəyə gətirmiş olduğu keyfiyyətlər də diqqətdən kənarda qalmamışdır. Qədim yaddaşdan gələn ənənələr XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycan dramaturgiyasında yeni zaman və yeni məfkurə kontekstində ədəbi-bədii fikrin ən aktual probleminə çevrilmişdi.

Azərbaycanda maarifçiliklə başlayan milli ideologiya XX əsrin ilk iki onilliyində iki böyük məfkurə axınının – türkçülüyün və azərbaycançılığın yaranması ilə nəticələndi. Bu axınlar bütövlükdə milli-mənəvi intibahın təşəkkülünü və güclənməsini şərtləndirdi, milli dövlətçilik düşüncəsi üçün təməl formalaşdırdı. Qeyd edilməlidir ki, XIX əsrin sonu-XX əsrin əvvəllərində bədii ədəbiyyat milli ideologiyanın mərkəzində yer alırdı. İdeoloji müxtəliflik bədii ədəbiyyatın ən fəal qolu olan dramaturgiyada özünü daha qabarıq büruzə verirdi. Buna görə də dramaturgiyada “atalar və oğullar” probleminin qoyuluşu daha geniş yanaşma tələb edir, bu problemi təkcə nəzəri ədəbiyyatşünaslıq baxımından deyil, müstəqillik dövrünün tarixi-ictimai dərki baxımından da ciddi surətdə aktuallaşdırır.

Tədqiq edilən dövrə aid dramaturgiya Azərbaycan ədəbiyyatşünaslığında kifayət qədər araşdırılmışdır. M.İbrahimovun “Böyük demokrat”[1], K.Məmmədovun “Nəcəf bəy Vəzirov”[2], M.Əlioğlunun “Ədəbiyyatda yeni insan”[3], Ə.Sultanlının

[1] İbrahimov, M.Ə. Böyük demokrat / M.Ə.İbrahimov. – Bakı: Az.SSR EA, – 1957. – 216 s.

[2] Məmmədov, K. Nəcəf bəy Vəzirov / K.D.Məmmədov. – Bakı: AzSSR EA, – 1963. – 328 s.

[3] Əlioğlu, M. Ədəbiyyatda yeni insan / M.Əlioğlu. – Bakı: Azərnəşr, – 1964. – 224 s.

"Azərbaycan dramaturgiyasının inkişafı tarixindən" [4], M.Məmmədovun "Azəri dramaturgiyasının estetik problemləri"[5], Y.Qarayevin "Faciə və qəhrəman"[6], "Realizm: sənət və həqiqət"[7], T.Əhmədovun "Nəriman Nərimanovun dramaturgiyası" [8], X.Əlimirzəyevin "Problemlər və xarakterlər dramaturgiyası" [9], Z.Əsgərlinin "N.Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsi" [10], H.İsrafilovun "Azərbaycan dramaturgiyasının inkişafı problemləri: 1890-1920-ci illər" [11], T.Mütəllimovun "Əbdürrəhim bəy Haqverdiyevin poetikası" [12], İ.Həbibbəylinin "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri"[13] və b. monoqrafiyalarda araşdırılan mövzuya müxtəlif münasibətlərlə toxunulsa da, XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycan dramaturgiyasında "atalar və oğullar" problemi dissertasiya mövzusu formatında, monoqrafik səviyyədə işlənilməmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın obyekti kimi XIX əsrin sonu-XX əsrin əvvəlində Azərbaycan dramaturgiyasının görkəmli nümayəndələri M.F.Axundzadə, N.Vəzirov, C.Məmmədquluzadə, N.Nərimanov, Ə.Haqverdiyev və başqa ədiblərin Azərbaycan ədəbiyyatının klassik fonduna daxil olan pyesləri götürülmüşdür. Tədqiqatın predmetini isə bəhs olunan

---

[4] Sultanlı, Ə. Azərbaycan dramaturgiyasının inkişafı tarixindən / Ə.Sultanlı. – Bakı: Azərnəşr, – 1964. – 301 s.

[5] Məmmədov, M. Azəri dramaturgiyasının estetik problemləri / M.Məmmədov. – Bakı: Azərnəşr, – 1968. – 390 s.

[6] Qarayev, Y. Faciə və qəhrəman / Y.Qarayev. – Bakı: AzSSR EA, – 1965. – 192 s.

[7] Qarayev, Y. Realizm: sənət və həqiqət / Y.Qarayev. – Bakı: Elm, – 1980. – 258 s.

[8] Əhmədov, T. Nəriman Nərimanovun dramaturgiyası / T.Əhmədov. – Bakı: Elm, – 1971. – 275 s.

[9] Əlimirzəyev, X. Problemlər və xarakterlər dramaturgiyası / X.Əlimirzəyev. – Bakı: Yazıçı, – 1979. – 356 s.

[10] Əsgərli, Z. Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsi / Z.Əsgərli. Bakı: Elm, – 1985. – 100 s.

[11] İsrafilov, H. Azərbaycan dramaturgiyasının inkişafı problemləri: 1890-1920-ci illər / H.İsrafilov. – Bakı: Elm, – 1988. – 226 s.

[12] Mütəllimov, T.M. Əbdürrəhim bəy Haqverdiyevin poetikası / T.M.Mütəllimov. – Bakı: Yazıçı, − 1988. − 328 s.

[13] Həbibbəyli, İ.Ə. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri / İ.Ə.Həbibbəyli. – Naxçıvan: Əcəmi, – 2009. – 670 s.

əsərlərdə “atalar və oğullar” problemi − müxtəlif nəsillər arasında baş verən münaqişələrin bədii həlli təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas elmi məqsədi XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycan dramaturgiyasının əsas mövzu və problemlərindən olan “atalar və oğullar” məsələsini tədqiq edib onun bədii-estetik, mənəvi-əxlaqi, tarixi-ictimai mahiyyətini klassik ədəbiyyat ənənələri ilə müqayisəli şəkildə, bədii fikirdə varislik prinsiplərini nəzərə almaqla aşkara çıxarmaqdır. Əsaslandırılan fikirlərdən biri də budur ki, xüsusən XX əsrin əvvəllərində “atalar və oğullar” ziddiyyəti təkcə ədəbi problem deyil, həm də tarixi tərəqqini hərəkətə gətirən qüvvə, ictimai hadisə idi.

Qarşıya qoyulan elmi-nəzəri məqsədə nail olmaq, araşdırılan əsərlərin ədəbiyyat tarixindəki yerini müəyyənləşdirmək üçün tədqiqat işində aşağıdakı elmi vəzifələr icra olunmuşdur:

− Problemin nəzəri fikirdə qoyuluşunu araşdırmaq, onun əsas prioritetlərini müəyyən etmək;

− Azərbaycan folklorunda, xüsusən onun ən möhtəşəm janrı olan eposda, konkret olaraq Azərbaycan epos mədəniyyətinin zirvəsi olan “Kitabi-Dədə Qorqud”da “atalar və oğullar” probleminin müxtəlif fəlsəfi-psixoloji aspektlərini təhlil etmək;

− Orta əsrlərin yazılı klassik ədəbiyyatında – N.Gəncəvi, M.Füzuli və b. yaradıcılığında bu çoxcəhətli problemin qoyuluşunu milli ənənələr kontekstində araşdırmaya cəlb etmək;

− Azərbaycan maarifçi realizmində “atalar və oğullar” probleminin qoyuluşunu araşdırmaq;

− İlk nümunəsi XIX əsrin ortasında yaranmış komediyalarda nəsillərarası münasibətləri realizmin estetik prinsipləri və Azərbaycan gülüş mədəniyyəti kontekstində təhlil etmək;

− “Müsibəti-Fəxrəddin”, “Dağılan tifaq”, “Nadir şah” faciələrində tarixin və tarixin yetişdirdiyi şəxsiyyətlərin tragizmini əks etdirən konfliktlərin əsas vasitəsi kimi “atalar və oğullar” – “konservatorlar və novatorlar” problemini tədqiq etmək;

− C.Məmmədquluzadənin “Ölülər” əsərində xurafat mühiti, fanatik atalar və bədbəxt övladlar məsələsini ön plana çəkmək, Kefli İskəndəri “oğullar”ı təmsil edən yeni əsrin tipik epoxial

qəhrəmanı kimi təhlil etmək;

− C.Məmmədquluzadənin “Anamın kitabı” pyesini azərbaycançılıq məfkurəsi fonunda milli birlik ideyasını təcəssüm etdirən əsər kimi təhlilə cəlb etmək;

− N.Nərimanovun “Nadir şah” tarixi faciəsini ata-övlad-hakimiyyət münasibətləri işığında araşdıraraq xalqın və dövlətin maraqlarından önə çıxan hakimiyyət hərisliyini övlad faciəsinin səbəbi kimi şərh etmək, problemi tarixilik kontekstində dəyərləndirmək.

**Tədqiqat metodları.** Dissertasiya işi elmdə obyektiv həqiqəti müəyyən etməyə imkan verən tarixi-müqayisəli və tarixi-genetik metod əsasında yazılmışdır. Mövzu və problemin mahiyyəti ilə bağlı dünya, rus və Azərbaycan alimlərinin monoqrafiyalarına, nəzəri-metodoloji xarakterli problem, prinsip və qənaətlərə istinad edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** XIX əsrin sonu-XX əsrin əvvəlində Azərbaycan dramaturgiyasında “atalar və oğullar” probleminin geniş və əhatəli tədqiqi bir sıra müddəaların müdafiəyə çıxarılmasını şərtləndirmişdir ki, onları aşağıdakı kimi sıralamaq olar:

− XIX əsrin sonu-XX əsrin əvvəllərində maarifçiliyin aktuallaşdırdığı “atalar və oğullar” probleminin Azərbaycan folklorunda, “Kitabi-Dədə Qorqud” eposunda və klassik yazılı ədəbiyyatdan gələn yaddaş ənənələrini izləmək;

− Yeniliklə mühafizəkarlıq arasında konfliktin yaranma səbəbləri və onun milli dramaturgiyada bədii-fəlsəfi təcəssümünü tədqiq etmək;

− Milli dramaturgiyada mühit və şəxsiyyət probleminin ədəbi-bədii və ictimai-fəlsəfi mahiyyətini aşkarlamaq;

− Atalar və oğullar arasındakı ictimai, eləcə də mənəvi-əxlaqi ziddiyyətlərin dramatik növün janrlarına görə fərqli bədii həllini vermək;

− Problemin komik, tragik və tragikomik aspektlərini bədii-estetik müstəvidə dəyərləndirmək;

− “Atalar və oğullar” problemi ilə müşayiət olunan əsərlərdə milli xarakter problemini şərh etmək.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi, hər şeydən öncə, mövzuya yanaşma və problemin qoyuluşu ilə bağlıdır. XIX əsrin sonu-XX əsrin əvvəllərində yaranmış dram əsərlərinin ideya-bədii və janr xüsusiyyətlərinə, poetika problemlərinə, ədəbiyyat tarixi nöqteyi-nəzərindən səciyyələndirilməsinə çoxlu elmi əsərlər həsr olunsa da, dramaturgiyada "atalar və oğullar" probleminin qoyuluşuna və bədii həllinə dair ayrıca tədqiqat aparılmamışdır. Bu dissertasiya XIX əsrin sonu-XX əsrin əvvəlləri Azərbaycan dramaturgiyasında "atalar və oğullar" problemini monoqrafik səviyyədə araşdıran ilk tədqiqat işidir.

İlk dəfə bu dissertasiyada Azrbaycan dramaturgiyasında "atalar və oğullar" məsələsinin filoloji-ədəbiyyatşünaslıq aspektləri ilə ictimai-tarixi xarakteri bütöv götürülərək sistemli təhlilə cəlb edilmişdir.

Elmi yenilik həm də mövzuya və problemə metodoloji yanaşma ilə bağlıdır. Azərbaycan dramaturgiyası ilə bağlı yazılmış tədqiqatların əksəriyyəti dövrün tələblərindən irəli gələrək marksist metodologiyaya əsaslanır. Təqdim olunan dissertasiyada ideologiyaya əsaslanan məhdud təhlil metodundan imtina edilərək tədqiq olunan mövzunun elmi-nəzəri dəyərlərinə, tarixi-sosioloji aspektlərinə üstünlük verilmişdir.

Tədqiqat işinin elmi əhəmiyyətini səciyyələndirən yeniliklərə həmçinin aşağıdakıları aid etmək olar:

− Problemin ilk dəfə olaraq milli ədəbiyyat tarixindəki ənənələri müəyyən olunmuş və mövzu ənənə ilə müasirliyin müqayisəsi kontekstində araşdırılmışdır;

− XIX əsrin əvvəllərindən başlayaraq yeni siyasi və mənəvi coğrafiyaya inteqrasiya olunan Azərbaycan realizmində "atalar və oğullar" problemini aktuallaşdıran ictimai-siyasi və mənəvi-mədəni şərtlərin bədii ədəbiyyatda necə ifadə olunması təhlil edilmişdir;

− Tədqiqatın mövzusuna əsərlərinə istinad olunmuş dramaturqların təmsil etdikləri bədii yaradıcılıq metodu – maarifçi realizm, tənqidi realizm və romantizmin bədii-estetik meyarları baxımından yanaşılmış, yazıçının ideoloji baxışları ilə əsərdə qaldırdığı ictimai problemin bədii həlli arasındakı bağlılıq təhlil

edilmişdir;

− “Atalar və oğullar” konflikti dramatik növün fərqli janrlarının (komediya, faciə, dram) bədii-estetik tələbləri əsasında araşdırılmışdır;

− Azərbaycan dramaturgiyasında “atalar və oğullar” probleminin qoyuluşu bədii hadisə olmaqla yanaşı, demokratik düşüncənin formalaşmasına təsir göstərən ictimai hadisə kimi təhlil olunmuşdur;

− Müxtəlif ictimai dövrlərdə həm ataların, həm də oğulların timsalında milli xarakterin, onun etnik-psixoloji özəlliyinin formalaşması və tənəzzülünün səbəbləri öyrənilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** İşin nəzəri əhəmiyyətini Azərbaycan dramaturgiyasında “atalar və oğullar” probleminin bədii inikasının ənənə və müasirlik, bədii yaradıcılıq metodu, janr, konflikt, xarakter, süjet, üslub kimi nəzəri anlayışlar kontekstində öyrənilməsi təşkil edir.

İşin nəticələrindən Azərbaycan ədəbiyyatı tarixinə həsr olunmuş təqdiqatlarda nəzəri mənbə kimi, ali məktəblərinin filologiya fakültələrində tədris vəsaiti kimi, eləcə də orta məktəbin yuxarı siniflərində ədəbiyyat fənnindən yardımçı vəsait kimi istifadə oluna bilər.

Araşdırmanın nəticələri müqayisəli ədəbiyyatşünaslıqla bağlı araşdırmalar aparan mütəxəssislər üçün də qaynaq rolunu oynaya bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas müddəaları, elmi yenilik və yekun nəticələri tezis, məqalələr şəklində Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının reyestrinə daxil olan elmi məcmuələrdə, respublika və beynəlxalq əhəmiyyətli konfrans və simpozium materiallarında əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Tədqiqat işi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tələblərinə uyğun

şəkildə yazılmışdır. Dissertasiya giriş (13 564 şərti işarə), üç fəsil (birinci fəsil– 42 900 şərti işarə, ikinci fəsil– 91 690 şərti işarə, üçüncü fəsil– 74 477 şərti işarə), nəticə – (5400 şərti işarə) və istifadə edilmiş ədəbiyyat siyahısından ibarət olmaqla ümumi həcmi boşluqsuz 228 031 şərti işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Tədqiqatın **Giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə səviyyəsi, obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, araşdırmanın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti şərh olunur.

Dissertasiyanın birinci fəsli **"Atalar və oğullar" qarşıdurmasının sosial-fəlsəfi və ədəbi-estetik qaynaqları"** adlanır. Bu fəsil iki paraqrafdan ibarətdir. Fəslin "**Atalar və oğullar" problemi folklor və milli-etnik yaddaş axarında"** adlanan birinci paraqrafında Azərbaycan folklorunda, xüsusən də onun ən möhtəşəm janrı olan dastanda "atalar və oğullar" məsələsinin mühüm yer tutduğu vurğulanır, göstərilir ki, Azərbaycan epos mədəniyyətinin zirvəsi olan "Kitabi-Dədə Qorqud"da "atalar və oğullar" probleminin fəlsəfi-psixoloji aspektləri türk mentaliteti, qəhrəmanlıq, cəngavərlik dəyərlərinə əsaslanır. Eposda oğul evin, yurdun, ailə şərəfinin qoruyucusu olmaqla yanaşı, həm də qəhrəmanlıq, cəngavərlik keyfiyyətlərinin daşıyıcısı, atanın davamçısıdır. Övlad üçün valideyn müqəddəsdir, "ana haqqı Tanrı haqqıdır!". Lakin bəzən nəsillər arasındakı tarazlıq pozulur, oğul ata ilə qarşı-qarşıya gəlir. K.Abdulla dastanda atalar və oğullar arasında konfliktin iki mənbədən gəldiyini göstərir: *"içəridən bişən və kənardan mexaniki şəkildə gətirilən..."*[14].

Nağıl və dastanlarda rast gəlinən "ata ilə oğulun döyüşməsi" ənənəvi süjeti "daxildən yetişən" hadisənin bədii inikasıdır, atalar və oğullar – bir-birini əvəz edən nəsillər arasında ziddiyyətin əzəli

---

[14] Abdulla, K.M. Mifdən yazıya və yaxud gizli Dədə Qorqud-3 / K.M.Abdulla. – Bakı: Mütərcim, – 2009. – s. 255.

mahiyyətini əks etdirir. Bu əzəli ziddiyyət mifik təfəkkürdə iki nəsil arasında döyüş kimi dərk və təqdim olunur.

Azərbaycan folklorunda yaşlı nəsil, ağsaqqal və ağbirçəklər məhz gəncliyə münasibətdə ikili səciyyə daşıyır. Müdrik ağsaqqallar, "ipək qarılar" müdrikliyi təmsil edir, onlar gənclərə yol göstərir, ağıllı məsləhətləri ilə onları baş verəcək bəla və faciələrdən xilas edirlər. Şərə xidmət edən yaşlıların (məsələn, Küpəgirən qarının) isə ən naqis əməli gənclərin önünü kəsməkdir.

*"Folklorda "atalar və oğullar" probleminə... ilkin münasibət"*[15] bəzən sələflər-xələflər çərçivəsində hakimiyyət, taxt-tac üstündə, bəzən qadına görə ata ilə oğul arasında yaranan ixtilaf, bəzən də təbiətdə və cəmiyyətdə mövcud olan dialektik ziddiyyətin mifik dərkinin təzahürü kimi "ata ilə oğulun döyüşməsi" şəklində özünü göstərir.

Fəslin **"Azərbaycan ədəbiyyatında nəsillərarası münaqişə məsələsi"** adlanan ikinci paraqrafında folklor ənənələrindən və mənbələrindən qaynaqlanan orta əsr sənətkarlarının yaradıcılığında "atalar və oğullar" problemini əks etdirən nümunələr tədqiqata cəlb olunur.

VIII əsrdə yaşamış ərəbcə yazan Azərbaycan şairi Əbu-l-Abbas əl-Əmaya aid edilən bir şeirdə ata və oğulun qarşılaşdırılması motivi yer alır. Atanın dilindən nankor oğula ünvanlanmış şeirdə bir tərəfdən atanın oğluna sonsuz məhəbbəti, digər tərəfdən yetişdirdiyi övladın nankor çıxmasından doğan dərin kədər və təəssüf hissi təsirli bədii əksini tapır.

XI əsrdə, türk-islam ədəbiyyatının ilk böyük sənətkarı hesab olunan Yusif Balasaqunlu əxlaqi-didaktik mövzuda yazdığı "Kutadqu-bilik" poemasında atanın ailədə rolu məsələsinə toxunaraq hesab edir ki, cəzalandıran atadan qorxan övlad nəticə etibarilə mənəvi və ictimai normalara daha çox uyğunlaşır və bu, onun cəmiyyətdə şəxsiyyət kimi formalaşmasında əsas faktor olur. Əsərdən çıxan məntiqi nəticəyə əsasən, uşaqların yaxşı və ya pis olmalarına səbəb atadır, yaxşı oğul düzgün ata tərbiyəsi ilə yetişir.

---

[15] Xəlilov, N. Xalq təfəkkürü, sənətkar qüdrəti / N.Xəlilov. – Bakı: Elm və həyat, –1996. – s. 48.

XI-XII əsrlərdə yaşamış görkəmli islam filosofu Qəzali yazırdı ki, *“hər bir canlının birinci sevgisi özünə olur”*[16]. İnsanın övladına olan sevgisinə gəlincə, mütəfəkkirə görə, Adəm övladları bu dünyanı nə vaxtsa tərk edəcəklərini bildiklərindən uşaqlarına özlərinin cahanda qalacaq bir parçası kimi baxır, onlar öldükdən sonra övladlarının yer üzündə onların davamçıları kimi fəaliyyət göstərəcəkləri ilə təskinlik tapırlar. Bu mənada, “Kutadqu-bilik”də Öydülmüş Aytoldunun, “İsgəndərnamə”də Ərəstu Niqumaşın təkcə varisi deyil, həm də əməllərinin davamçıları və daşıyıcılarıdır.

Bu paraqrafda X.Şirvani, N.Gəncəvi, M.Əvhədi, M.Füzuli, Fədai və digər orta əsrlər şairlərinin yaradıcılığında “atalar və oğullar” problemi kontekstində nəsillərin konflikti məsələsinə münasibət bildirilmişdir. Belə qənaətə gəlinmişdir ki, hər tarixi dövrün aparıcı məfkurəsi ilə yaxından səsləşən “atalar və oğullar” probleminin XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəllərində Azərbaycan dramaturgiyasında aktuallaşması klassik ədəbiyyatdan gələn zəngin ənənələrdən qaynaqlanır.

Dissertasiyanın ikinci fəsli **“XIX əsrin sonu-XX əsrin əvvəlində Azərbaycan dramaturgiyasında mühit və şəxsiyyət problemi”** adlanır. Bu fəsil iki paraqrafdan ibarətdir. **“Maarifçi ədəbiyyatda yeniliklə köhnəliyin mübarizəsi konflikt kimi”** adlanan birinci paraqrafda əsas diqqət M.F.Axundzadədən sonra maarifçi realizm bədii yaradıcılıq metodunu dramaturgiyada uğurla davam və inkişaf etdirən N.Vəzirovun əsərlərində köhnəlikdə yeniliyin mübarizəsinə, yeniliyə, maarifə çağırışa, geriliyin tənqidinə, tərəqqiyə əngəl olan ata-babadan qalma düşüncə tərzinə yönəldilir.

XIX əsr yeni siyasi və mədəni coğrafiya ilə təmasları genişlənən Azərbaycan cəmiyyətinin tarixin yetişdirdiyi müəyyən məsələləri həll etməli olduğu, Şərq dəyərləri ilə Qərb dəyərləri arasında seçim etmək zərurəti qarşısında qaldığı dövr idi. Azərbaycanın Rusiya tərəfindən işğal edilməsi, burada yeni idarəetmə üsullarının bərqərar olması, mədəni həyata daxil olan

---

[16] Bax: İbrahimov, S.M. Klassik ədəbiyyatda vəhdəti-vücud / S.M.İbrahimov. – Bakı: MBM MMC, – 2007. – s. 84.

yeniliklər cəmiyyətin həyatında və düşüncəsində dəyişikliklər yaranması üçün zəmin hazırlamışdı. Yeni ictimai-siyasi və mədəni mühitdə Şərqin zamanla ayaqlaşa bilməyən adət-ənənələrini konservatorlar, Qərbin dəyərlərini isə artıq dədə-baba tərzi ilə yaşamağın mümkünsüzlüyünü düşünən, Qərb tərəqqisinə qoşulmağa çağıran maarifçi ideyalarla silahlanmış yeni düşüncəli ziyalılar təmsil edirdilər. Onların arasında gedən mübarizənin dərinliyi, konfliktin kəskinliyi, mövqelərin barışmazlığı problemi elə bir ziddiyyətli müstəviyə çıxarmışdı ki, onun bədii həlli milli söz sənətimizə yeni janrın – faciənin gəlməsi ilə nəticələndi. C.Cəfərov Azərbaycan ədəbiyyatında faciənin yaranmasını ictimai-siyasi zərurətin nəticəsi kimi qiymətləndirərək yazırdı: *"...XIX əsrin axırlarındakı yaşayış şəraiti Azərbaycanda drama və faciənin əmələ gəlməsi zərurətini doğururdu"*[17].

Azərbaycan ədəbiyyatında ilk faciənin − "Müsibəti-Fəxrəddin"in mövzusunu iki ailə arasında qan düşmənliyi təşkil edir. Bəs insanları qan düşmənliyi kimi ibtidai adətdən əl çəkməyə qoymayan, qan tökməyə təhrik edən nə idi? N.Vəzirovu düşündürən əsas sual bu idi. Hələ Moskvada tələbə olarkən "Əkinçi" qəzetinə yazdığı məqalələrdə gənc ədib diqqəti millətin köhnədənqalma həyat və düşüncə tərzindən ayrıla bilmədiyinə yönəldir, bunu ağır ictimai bəla kimi qiymətləndirirdi. "Müsibəti-Fəxrəddin"dəki faciənin də əsasını *"Hərdəm tənha oturub fikir edirəm: xudavənda, bizim axırımız necə olacaq? Ağlımız ata-baba ağlı, getdiyimiz ata-baba yolu, heç bir dəyişilmək yoxdur"*[18] – deyən müəllifi gənc yaşlarından düşündürən vətəndaş narahatlığı təşkil edır. Fəxrəddinin ata-baba mühitinə xaricdə təhsil alandan sonra gəlməsi və həmin mühitdə qətlə yetirilməsi də təsadüf deyil.

N.Vəzirovun əsərlərində yeni maarifçi qüvvələri də, köhnə fikirli "mühafizəkar ataları" da çox zaman kişilər təmsil edir. Müəllifin "Sonrakı peşmançılıq fayda verməz" komediyasında isə bu konflikt "qızlar" və "analar" savaşı müstəvisinə gətirilir.

---

[17] Cəfərov, C.H. Həyat burulğanı və ondan çıxış yolu / C.H.Cəfərov. – Bakı: Yazıçı, – 1999. – s. 98.

[18] Əkinçi. 1875-1877. Tam mətni / Transl. və tərt. ed. T.Həsənzadə. – Bakı: – Avrasiya-Press, 2005. – s. 387-388.

Sonradan C.Məmmədquluzadənin yazdığı "Anamın kitabı"nda ziyalı "yeninin" qarşısında mütərəqqi köhnə – ana, müdrik qadın obrazı, eləcə də mənəvi ata ocağının qoruyucusu Gülbahar obrazı qoyulur.

N.Vəzirovun həm komediya, həm dram, həm də faciələrində konservatorlarla novatorlar arasında baş verən münaqişə sürətlə dəyişən tarixin yetişdirdiyi ictimai problem idi. Bu, köhnə əsrin yeni əsrə − XIX əsrin XX əsrə ötürdüyü ictimai-sosial hadisə idi və təsadüfi deyil ki, Azərbaycan ədəbiyyatında "Təzə əsrin ibtidası" dramını da N.Vəzirov yazdı. Yeni zəmanənin önündə gələn gəncliyi tərənnüm edən bu dramı yazanda isə artıq N.Vəzirovun özü yaşlanmışdı və köhnə nəsli təmsil edirdi.

Fəslin **"Müəllif idealı və ziyalı obrazları"** adlanan ikinci paraqrafı Ə.Haqverdiyev dramaturgiyasında "atalar və oğullar" probleminin həllinə həsr olunmuşdur.

"Dağılan tifaq" əsərinin adı özlüyündə dövrün xarakterini, ictimai durumunu dolğun əks etdirir. Əsərdə yeni ilə köhnənin münaqişəsi öz ifadəsini kapitalizmin feodalizmi əvəz etməsi və bu prosesin obyektiv nəticəsi olaraq baş verən sosial-psixiloji sarsıntılar kontekstində tapır. Yazıçı bir mülkədar ailəsinin timsalında feodal-mülkədar quruluşunun faciəsini əks etdirir. Nəcəf bəy və oğlu Süleyman iflasa uğramış köhnəliyin təmsilçiləri kimi təqdim olunur. Əsərdəki faciəviliyi şərtləndirən isə köhnəliyi əvəz edən yeniliyin, pulun hökmranlığına əsaslanan yeni ictimai münasibətlərin yüksək mənəvi keyfiyyətlərdən, əxlaqi dəyərlərdən məhrum olmasıdır.

Bu paraqrafda Ə.Haqverdiyevin tərcümeyi-halı ilə yaxından səsləşən "Bəxtsiz cavan" faciəsi təhlilə cəlb edilir və belə qənaətə gəlinir ki, pyesdə dramaturji konflikt mühitlə şəxsiyyət arasındakı ziddiyyətlərlə yanaşı, həm də əsərin qəhrəmanının fərdi psixoloji sarsıntıları zəminində baş verir. Fərhadı mühit həm kənardan, həm də daxildən sıxır. Xaricdə təhsil alan yeni düşüncəli gəncliyi təmsil edən Fərhadın daxili üsyanını alovlandıran başlıca psixoloji amil atası öləndən sonra anasının Hacı Səməd ağaya ərə getməsidir. Ona görə də Fərhad mühitdən uzaqlaşmaq arzusundadır. Lakin Fəxrəddin kimi Fərhadın da mühitin "nizamını pozmağa" gücü

çatmır, düşdüyü şərait və içindəki sarsıntı onu məhv edir.

Dissertasiyanın üçüncü fəsli **"Dramaturgiyada konflikt və xarakter"** adlanır.

XIX əsrdə daha çox maarifçiliyin problemi, onun estetik konsepsiyasında dramatik konflikt yaradan qütblər – "atalar və oğullar" XX əsrin tənqidi realizmində də əsas xətt olaraq qalırdı.

1905-ci ildə Rusiya imperiyasında, eləcə də onun tərkibində olan Azərbaycanda baş verən gərgin ictimai-siyasi hadisələr fonunda maarifçilik tarixi prosesə çevik müdaxilə etməyə imkan verən publisistikanı ön plana çıxardı, böyük ənənlələrə malik Azərbaycan poeziyasına yeni ictimai və bədii-estetik keyfiyyətlər qazandırdı. Buna hər şeydən öncə, mətbuatın vüsətli inkişafı səbəb oldu. "Həyat" qəzeti, "Molla Nəsrəddin" və "Füyuzat" məcmuələri yeni ədəbi məktəblərin yaranmasına təkan verdi, "ədəbi dövrün başçısı" (Y.V.Çəmənzəminli) nüfuzunu qazandı. Milli kimlik, hürriyyət, ana dili, ikiyə bölünmüş "yazıq vətən"in taleyi bu dövr poeziyasının, dramaturgiya və nəsrinin, eləcə də publisistikasının ağrılı problemləri idi.

Fəslin **"Ölülər" mühitində düşünən şəxsiyyətin faciəsi"** adlanan birinci paraqrafında görkəmli ədib C.Məmmədquluzadənin "Ölülər" pyesində cahillik mühiti və tərəqqipərvər qəhrəman qarşıdurması mühit-qəhrəman münasibətləri kontekstində təhlil olunur. C.Məmmədquluzadəyə qədər Azərbaycan dramaturgiyasında "atalar-oğullar" probleminin qoyuluşunda elm və təhsil "xilaskar" kimi təqdim olunurdu. İlk dəfə C.Məmmədquluzadə İskəndər obrazı vasitəsilə elmin, təhsilin cəmiyyətə düzgün xidmət etməli olduğu məsələsini qoydu. İskəndər üçün elm, təhsil cəhalətdən ayılmaq, "ölülük"dən dirilmək vasitəsidir. Onun ətrafındakı oxumuşlar üçünsə təhsil qazanc mənbəyi, mənfəət yeridir, onlar üçün "ölülər" mühitində yaşamaq daha əlverişlidir.

"Ölülər" mühitinin ən faciəvi cəhəti İskəndəri də "ölüyə", əlində cəmiyyətə təsir edə bilmək ixtiyarı olmayan "artıq adama" çevirə bilməsindədir. Fransada təhsil alıb gələn bir gəncin perspektivlərini yaşadığı xurafat mühiti məhv edir. İskəndər öz təsəllisini araq içməkdə görür. N.Vəzirovun "Müsibəti-Fəxrəddin",

Ə.Haqverdiyevin "Bəxtsiz cavan" faciələrində qəhrəmanlar şəriət qanunlarının unudulduğundan gileylənir, həmvətənlərinin din yolundan azdıqlarından şikayətlənirlər. "Ölülər" pyesində isə cəhalət aləmində dinin fırıldaqçıların alətinə çevrilməsi ifşa olunur. O da maraqlıdır ki, bu əsərin tamaşası ilə bağlı öz təəssüratını yazan ziyalılardan biri N.Vəzirov olmuşdu. "Açıq söz" və "Kaspi" qəzetlərinin eyni tarixdə − 1916-cı il 1 may tarixli nömrələrində çıxış edən N.Vəzirov "Ölülər"in həyatdan alınmış əsər olduğunu vurğulayırdı: *"...əsrlər boyu dini fanatizmə əsaslanaraq bədbəxt müsəlmanları tam cəhalətdə saxlayan Şeyx Nəsrullah kimi şəxslərin şarlatanlığını qamçılayan belə bir əsərin yaramasını görüb şadlığımı ifadə etməyə bilmirəm"*[19].

Sovet dövrü tədqiqatlarında bu əsər din əleyhinə yazılmış pyes kimi xarakterizə olunmuşdur ki, bu da dövrün ideologiyasından gələn ifratçılıq idi.

Üçüncü fəslin ikinci paraqrafı **"Milli yaddaş və özgələşmə problemi"** adlanır. Bu paraqrafda Hüseyn Cavid dramaturgiyasında atalar ilə oğullar arasındakı münasibətlər milli-mənəvi dəyərlər və özgələşmə problemi müstəvisində təhlil edilir, eləcə də C.Məmmədquluzadənin "Anamın kitabı" pyesi XX əsrin əvvəllərində milli kimlik və milli tale məsələsinin ən dolğun bədii həllini verən əsər kimi tədqiqata cəlb olunur.

"Atalar və oğullar" mövzusuna romantizm estetikasının fəlsəfəsi və tələbləri ilə yanaşan H.Cavidin təkcə dram əsərlərində deyil, lirik yaradıcılığında da milli-mənəvi dəyərlərin nəsildən-nəslə ötürülməsi aparıcı motiv kimi diqqəti cəlb edir. "Qoca bir türkün vəsiyyəti" şeiri şairin gəncliyi öz köklərini tanımağa çağırışıdır. Bu vəsiyyət türklüyün fəzilətlərini yeni nəslə çatdırmaqla mənəvi dəyərlərə sədaqəti təlqin edir. Atalardan miras qalan mənəvi əmanətə xələflər sahib çıxmalı, doğma düşüncəyə arxa çevirməməli, milli keyfiyyətlərini qorumalıdırlar. Bu keyfiyyətlərsə Tanrıya sevgi, qardaşlıq, ədalət, cəsarət, zülmə nifrət, elm və hikmət həvəsidir. Namus və vicdan iki böyük qanaddır ki, insanı göylərə yüksəldər.

---

[19] N.Vəzirov. Əsərləri. Bakı: Şərq-Qərb, – 2005. – s. 414-415.

Bu paraqrafda H.Cavidin əsas konfliktini “atalar və oğullar” münaqişəsi üzərində qurduğu “Maral” pyesi də təhlilə cəlb edilir. Göstərilir ki, əsərdə şəxsi düşüncələrini Nadir bəy obrazı vasitəsilə oxucuya çatdıran H.Cavid mənəvi kamilliyin irsən ötürülmədiyini vurğulayır. Dramaturq “Maral” əsərində qarşılıqlı sevgi tərəfdarı və qadın hüquqlarının müdafiəçisi kimi çıxış edir.

H.Cavidin “Uçurum” pyesində isə milli-mənəvi dəyərlərə sədaqətin oğula ata tərəfindən aşılandığı qənaətinə gəlinir. Uluğ bəy türklərin əsrlər boyu yaşatdığı milli-mənəvi dəyərlərin təbliğatçısı kimi çıxış edir. Əsərdə “milli özgələşmə” ən böyük bəlalardan biri kimi qiymətləndirilir. H.Cavidə görə, insanın təbiətindəki keyfiyyətlər, təhsil və mühit də burada rol oynayır. “Uçurum” əsəri ilə böyük mütəfəkkir gələcək nəsillərin tərbiyəsində övladlara milli mənlik duyğusunun aşılanmasının vacib olduğunu diqqətə çatdırır. “Özgələşən”, öz kökündən imtina edən övlad milli, dini və mənəvi dəyərlərdən üz döndərəcək ki, bu da milləti uçuruma sürükləyən fəlakətlə nəticələnər. Ümumiyyətlə, *“H.Cavidin insansevərlik fəlsəfəsində türkçülük ideyası – millətini sevmək, onun yüksək mənəvi-əxlaqi keyfiyyətlərini, mərdliyini tərənnüm etmək motivləri güclüdür”*[20].

Türk kimliyini dərk etməyə çağırış, türk mənəviyyatının gələcək nəsillərə ötürülməsi H.Cavidin yaradıcılığı boyu izlədiyi əsas qayələrdəndir. “Uçurum” əsərində oğul ata geninin daşıyıcısı kimi çıxış edir, “Maral” faciəsində türk ədəb-ərkanı, türkün əxlaq normaları, zamana uyğunlaşma kimi keyfiyyətlər təbliğ olunur, “Səyavuş” pyesində igidlik, cəsurluq, mükəmməl döyüş ustalığı kimi qabiliyyətlərin türkün qanından gələn keyfiyyət olduğu diqqət mərkəzinə çəkilir. Əfrasiyab Səyavuşun mərdliyinə, mənəviyyatına heyran olduğu üçün öz qızı ilə onun izdivacını təqdir edir və nəslin gələcəyinin əmin əllərdə olduğuna inanır.

H.Cavid əsərlərində türk gəncliyinin Qoca Türk, Uluğ bəy, Piran kimi həyat təcrübəsi olan müdriklərin məsləhətinə və Nadir bəy, Azər kimi zəngin dünyagörüşə sahib ziyalılardan örnək almağa

[20] Abdullayeva, M.Ə. Hüseyn Cavidin insansevərlik fəlsəfəsi // Hüseyn Cavidin 130 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransının materialları, – Bakı: Bakı Universiteti, – 2012, – s. 115.

həmişə ehtiyacı olduğunu diqqətə çatdırır.

C.Məmmədquluzadənin bədii yaradıcılıq metodu, başqa sözlə, gerçəkliyi obrazlı əks etdirmək prinsipləri H.Caviddən fərqli olduğu kimi, bu iki sənətkarın dil, millət və vətən anlayışlarına münasibətində də fərq var. C.Məmmədquluzadə 1917-ci ildə Rusiya imperiyasının süqutundan sonra yazdığı "Azərbaycan" essesində Azərbaycanın hüdudlarına, eləcə də Azərbaycan dili anlayışına konkretlik gətirmişdi. Oxucularına *"vətən, vətən, vətən; dil, dil, dil; millət, millət, millət!..*" nidası ilə səslənən C.Məmmədquluzadə vətən deyəndə tarixi Turan coğrafiyasını deyil, Azərbaycan ərazisini nəzərdə tutur, "dilim nə dilidir?" sualına isə "Azərbaycan dili!" cavabını verirdi.

Yeni nəslin tarixi vəzifəsini vətəni, milləti, dili qorumaqda görən C.Məmmədquluzadə öz idealını "Anamın kitabı" dramında daha qabarıq şəkildə ifadə etməyə çalışmışdı. Onu da deyək ki, Azərbaycan ədəbiyyatında tənqidi realizmin görkəmli nümayəndəsi olan Cəlil Məmmədquluzadənin öz tendensiyasını "gizli" saxladığı digər əsərləri ilə müqayisədə "Anamın kitabı" fərqlənir. Burada öz mövqeyini birbaşa ifadə edən müəllif maarifçi realizm estetikasına əsaslanır. Əsərin konfliktini biri Osmanlıda, biri İranda, biri də Rusiyada təhsil almış, vətənin, dilin və millətin gələcəyini təhsil aldıqları ölkələrə bağlamaq həvəsində olan, bir-biri ilə dil tapa bilməyən üç oğulla vətənə bağlı qüvvələr – Zəhrabəyim ana, Gülbahar, sadə xalq nümayəndələri arasındakı zidiyyət təşkil edir. Dramdakı ana obrazı Azərbaycanın rəmzidir. Özgələşməni millətin fəlakətinə səbəb ola biləcək ictimai bəla hesab edən müəllif mənəvi cəhətdən bölünmək təhlükəsi qarşısında olan vətənin obrazını Zəhrabəyim ananın parçalanmış ailəsinin üzərinə köçürüb.

"Anamın kitabı" dramında dil məsələsinin qabardılması öz köklərindən uzaqlaşmanın, yadlaşmanın faciəsini göstərmək üçün vasitədir. Əsərin konflikti iki müstəvidə təqdim olunur: eyni ata-ananın övladı olan, bir evin içində yaşayan, lakin bir-birinin dediyini başa düşməyən, yaxud başa düşmək istəməyən qardaşlar arasındakı ziddiyyət; "özgələşmiş" qardaşlar ilə vətəni təmsil edən ana (Zəhrabəyim), bacı (Gülbahar), ümumilikdə xalqın arasındakı qarşıdurma.

C.Məmmədquluzadənin mövqeyi budur ki, göydəki ay, ulduzlar günəşin bir parçası olduğu kimi, övladlar da analarının ayı və ulduzlarıdır. Onlar dünyanın hər yanını gəzsələr belə, əvvəl-axır analarının ətrafından, cazibəsindən ayrılmamalıdırlar. Bu, təbiətin qanunudur.

"Anamın kitabı" dramında qarşılaşma və simvollaşma yadlaşma və milliləşmə ideyaları üzərində qurulub. Dramaturq pyesdə obrazları iki cəbhədə qruplaşdırmışdır: özgələşmə cəbhəsinin nümayəndələri və milli cəbhənin nümayəndələri. Tədqiqatçı Taleh İsmayılov bu cəbhələşməni belə müəyyənləşdirmişdir: "1. *Ayrı-ayrı, müxtəlif səciyyəli tipik "intelligent personajlarının ümumiləşməsindən yaranan simvolik "ziyalı" obrazı. 2. Zəhrabəyim, Gülbahar, çoban obrazlarının ümumiləşməsindən yaranan xalq obrazı"*[21].

Ziyalı və xalq mövzusunu müəyyən mənada "atalar və oğullar" probleminin konteksti kimi nəzərdən keçirmək olar. Bu, XIX əsrin sonu-XXəsrin əvvəlində yaradılmış dramaturgiya materialında məhz ziyalı və xalq konflikti zəminində boy atmışdı. Azərbaycan dramaturgiyasının gənc qəhrəmanları – vətəndən xaricdə yüksək təhsil almış Fəxrəddin, Fərhad, Kefli İskəndər kimi obrazlar tərəqqini təmsil edirlər. Onların üzərində maarifçi, ziyalı missiyası var. Milli düşüncənin dəyişmək zərurəti qarşısında olduğunu dərk edən bu gənclər tərəqqiyə mane olan həyat tərzinə, zamanla ayaqlaşa bilməyən adət-ənənələrə, beyinləri buxovlayan xurafata qarşı mübarizə aparırlar.

Bu gənclərin həyata baxışının formalaşmasına, heç şübhəsiz ki, bizə qonşu olan millətlərlə rəqabət şəraitində yaşamaq zərurəti də təsirsiz qalmamışdı. XX əsrin əvvəlində Azərbaycan ədəbiyyatında baş verən ən mühüm yeniliklərdən biri də "atalar-oğullar" konfliktinin mərkəzinə milli ideologiyanın gətirilməsidir. Yeni təşəkkül tapan milli ideologiyanın özündə isə qütbləşmə mövcud idi ki, bu, dramaturgiyada da bariz görünməkdədir. Yaradıcılıq idealında Turan birliyini əsas götürən, ortaq türk dili

[21] İsmayılov, T.H. Cəlil Məmmədquluzadənin "Anamın kitabı" dramı: / filologiya üzrə fəlsəfə doktoru dissertasiyası / – Bakı, 2005. – s. 56

yaratmağa təşəbbüs göstərən və əsərlərini ortaq türk dilində yazan H.Cavidin qəhrəmanları milli ideologiyanın bir qütbündə dayanır, C.Məmmədquluzadənin, N.Nərimanovun, Ə.Haqverdiyevin, Ü.Hacıbəylinin azərbaycançılıq məfkurəsini önə çıxaran qəhrəmanları isə milli ideologiyanın digər qütbünü təmsil edirdilər. Hər iki qütbün mübarizəsi isə eyni ideala – milli kimliyə sədaqət uğrunda mübarizəyə xidmət edir.

“Anamın kitabı” əsərində ziyalılar yadlaşma cəbhəsində görünürlər. Ziyalılıq mövzusu həmin dövr ədəbiyyatını düşündürən mövzulardan idi. C.Məmmədquluzadə artıq “Ölülər” əsərində bu mövzuya toxunmuşdu. Amma dramaturqun bu mövzuya yanaşma rakursu “Ölülər” və “Anamın kitabı” pyeslərində fərqlidir. “Ölülər”də ədib ziyalılığın ətaləti, cəmiyyətdə hərəkətə çevrilə bilməməsi problemimi qabardıb, onun üzərində düşünürdüsə, “Anamın kitabı” pyesində müəllif problemin daha da dərinliklərinə enir, vətənin, milli varlığın məhvinə aparan ziyalılıq məsələsini qoyur. Müəllif dramaturji konfliktin bədii həllində həm də milli özgələşmə probleminin həllini verir və bu problemin həllinin ilk olaraq milli varlığımıza soxulmuş yad təsirlərin məhvindən keçdiyini vurğulayır.

Üçüncü paraqraf **“Xalq və hakimiyyət konflikti “atalar və oğullar” problemi müstəvisində”** adlanır. Bu paraqrafda N.Nərimanovun “Nadir şah” faciəsində “atalar və oğullar” probleminin qoyuluşu və bədii həlli təhlil edilmişdir. Azərbaycan dramaturgiyasının xalq və hakimiyyət münasibətlərini diqqətdə saxlaması dövlətçilik təfəkkürünün təşəkkülünə xidmət etmək baxımından maraq doğurur. M.F.Axundzadənin “Sərgüzəşti-vəziri-xani-Lənkəran”, N.Nərimanovun “Nadir şah”, Ə.Haqverdiyevin “Ağa Məhəmməd şah Qacar”, C.Cabbarlının “Nəsrəddin şah”, H.Cavidin “Topal Teymur” kimi əsərlərinin milli şüurda dövlət təfəkkürünün formalaşmasında müstəsna əhəmiyyəti xüsusi qeyd edilməlidir.

N.Nərimanovun “Nadir şah” pyesində əslən azərbaycanlı olan Nadir şah hakimiyyətə xalq üsyanı nəticəsində gəlir, türk və İslam dünyası üçün böyük islahatlar həyata keçirməyi düşünür. Lakin onun içindəki hakimiyyət ehtirası hər şeyi alt-üst edir. Öz şəxsiyyəti

ilə tarixdə iz açan Nadir şah hakimiyyət ehtirasına məğlub olur. Saray mühitinin hiyləsi ilə doğma oğlunu dünya işığından məhrum edən Nadir şah özünü və hakimiyyəti varisdən məhrum etmiş olur. Faciədə oğlunu çox sevən ata ilə qatil ata arasındakı ziddiyyətli durum xarakteri dərinləşdirdiyi kimi, konflikti də bədii cəhətdən daha qüvvətli, daha dramatik bir səviyyəyə qaldırır.

“Nadir şah” pyesi təhlil olunaraq belə qənaətə gəlinir ki, əsərdə Nadir şahın xalq üsyanı nəticəsində hakimiyyətə gəlməsi, ciddi siyasi islahatlar aparması kimi məsələlər N.Nərimanovun maarifçilik görüşlərini ifadə edir. Pyesdə ata obrazı şah obrazını tamamlamağa xidmət edir. Bununla belə, Nadirin ata obrazı bədii cəhətdən şah obrazından daha qüvvətli alınmışdır. Faciədə hakimiyyət ehtirasının ata məhəbbətinə qalib gəlməsi ən tragik məqamlardandır.

N.Nərimanovun Azərbaycan tarixinin əlamətdar bir dövrünə həsr olunmuş “Nadir şah” faciəsində “atalar və oğullar” probleminin həlli tarixilik kontekstində, yüksək faciəvi pafosla ortaya çıxır.

**Nəticədə** tədqiqata yekun vurularaq əldə edilmiş əsas müddəalar və elmi-nəzəri qənaətlər ümumiləşdirilmişdir:

- Azərbaycan ədəbiyyatında “atalar və oğullar” probleminin qoyuluşu hər bir dövrün aparıcı məfkurəsinə əsaslanmışdır. Əslində, millətlərin tarixi nəsillərin dəyişməsi, oğulların ataları əvəzləməsi prosesidir.
- XIX əsrin sonu-XX əsrin əvvəlində Azərbaycan dramaturgiyasının vüsətli inkişaf dövründə bu problemin ön plana çıxması təsadüf deyil. Bu, həyatdan gələn, realizmin əsasını təşkil edən tarixilik problemidir.
- XIX əsrin ortalarında “atalar və oğullar” problemi həm həyatda, həm də ədəbiyyatda maarifçilik məfkurəsinin əsas məsələlərindən biri idi. M.F.Axundzadənin gənc qəhrəmanı Şahbaz bəy (“Hekayəti-Müsyö Jordan...”) Avropaya – maarifə can atırdı. Əsrin sonunda isə N.Vəzirovun və Ə.Haqverdiyevin qəhrəmanları Fəxrəddin (“Müsibəti-Fəxrəddin”) və Fərhad (“Bəxtsiz cavan”) Avropada təhsil alıb vətənə qayıtmışdılar. Köhnəlmiş həyat və düşüncə tərzi ilə

yeni ideyaların toqquşması bu "bəxtsiz cavanlar"ın faciəsi ilə nəticələnir.

- Dramaturgiyada "atalar və oğullar" mövzusu mühit və şəxsiyyət problemini ön plana çıxarır. Mühit eyni tarixi səciyyəyə malikdir, şəxsiyyət isə "atalar" və "oğullar" sırasından çıxır. Bu problem dünya ədəbiyyatında, eləcə də Azərbaycan dramaturgiyasında konservatorlar və novatorlar formatında təzahür edir. Onların arasında ziddiyyət estetik ideallarıın fərqindən yaranır. XIX əsrin sonu – XX əsrin əvvəlində Azərbaycan dramaturgiyasında dramatikliyi yaradan konfliktlər bu ziddiyyətdən irəli gəlirdi.
- XX əsrin əvvəllərində dramaturgiyada mühafizəkar atalar və mütərəqqi oğullar qarşıdurmasının bədii həlli yeni səviyyəyə çatır. Fəxrəddin və Fərhad kimi xaricdə oxuyub gəlmiş Kefli İskəndəri (C.Məmmədquluzadə. "Ölülər") mühit özündən kənara atıb "artıq adam"a çevirir. Xaricdə oxumuş, ancaq ananın dilinə, öz köklərinin mənəviyyatına yadlaşan, "özgələşən" oğullar ("Anamın kitabı") milli varlığın qorunub saxlanması üçün təhlükəyə çevrilirlər.
- XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında romantizm cərəyanının yaranması "atalar-oğullar" probleminin qoyuluşuna yeni yanaşma gətirir. H.Cavid dramaturgiyasında milli kimlik idealı Turan coğrafiyası, türk mənəvi dəyərləri ilə əlaqələndirilir. Romantik H.Cavidi və realistləri birləşdirən ümumi cəhət isə özgələşmənin yaratdığı narahatlıq idi.
- XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycan dramaturgiyasında "atalar və oğullar" probleminin qoyuluşu ölkənin ictimai-siyasi, mədəni həyatının yetişdirdiyi tarixi şərtlərə əsaslanır. Bu, həyatın və tarixin aktuallaşdırdığı milli problem idi və dramaturgiyada milli müəyyənlik və sənətkar idealının formalaşmasına təsirsiz qalmadı.

**Dissertasiyanın əsas məzmunu və elmi-nəzəri müddəaları müəllifin respublika və xarici ölkələrdə dərc olunmuş elmi məqalələrində, konfrans materiallarında öz əksini tapmışdır:**

1. "Atalar və oğullar" probleminin bədii ədəbiyyatda təcəssümü // Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika elmi konfransının materialları, II c. − Bakı: − 19-20 dekabr, − 2013, − s. 80-82.
2. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatında "atalar və oğullar" problemi // − Dil və ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal, − 2014. № 4 (92), − s. 209-212.
3. "Dədə Qorqud" dastanında atalar və oğullar // "Kitabi-Dədə Qorqud" və türk dünyası "Kitabi-Dədə Qorqud"un tərcüməsi və nəşrinin 200 illiyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları, − Bakı: Araz, − 29 dekabr, − 2015, − s. 242-245.
4. Maarifçi dramaturgiyada konflikt // − Bakı: Bakı Universitetinin xəbərləri, Humanitar elmlər seriyası, − 2017. № 3, − s. 50-55
5. Борьба нового со старым как основной конфликт в драматургии (на основе творчества Н.Везирова) // − Киев: Язык и культура, Киевский Национальный Университет имени Тараса Шевченко, − 2018. Выпуск 21, том 6 (195), − с. 241-248
6. "Diri ikən ölülər" və kefli İskəndər həqiqəti // − Naxçıvanı: Elmi əsərlər, Humanitar elmlər seriyası, − 2018. № 5 (94), − s. 97-102.
7. Feodal-patriarxal mühit və ziyalı mövqeyi (Ə.Haqverdiyevin "Dağılan tifaq" əsəri əsasında) // − Bakı: Filologiya məsələləri, − 2019. № 6, − s. 260-265.
8. "Atalar və oğullar" ədəbiyyatda ənənəvi problem kimi // Doktorantların və gənc tədqiqatçıların XXIII Respublika elmi konfransının materialları, II c. – Bakı: AzMiU Nəşriyyat-Poliqrafiya Mərkəzi, − 03-04 dekabr, − 2019, − s. 148-150.
9. Azərbaycan dramaturgiyasında "atalar və oğullar" problemi (maarifçilik kontekstində) // "Elm və təhsilin aktual

problemləri” I beynəlxalq elmi konfransın materialları, − Ankara: − 15 oktyabr, − 2019, − s. 338-344.

10. Nəcəf bəy Vəzirovun “Müsibəti-Fəxrəddin” əsərində dramaturji konflikt // “Elm, mədəniyyət və təhsil: XXI əsrdə elmin inkişafının aktual məsələləri” beynəlxalq elmi-praktik konfransın materialları, − Qars: − 15 dekabr, − 2019, − s. 78-82.
11. Klassiklərin yaradıcılığında ata-oğul münasibətlərinin ifadəsi // Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin anadan olmasının 650 illiyinə həsr olunmuş “Klassik Azərbaycan ədəbiyyatı: dil, üslub, ideya problemləri” adlı elmi konfransın materialları, − Bakı: Nafta-Press, − 06-07 dekabr, − 2019, − s. 239-244.
12. N.Nərimanovun “Nadir şah” tarixi faciəsində hakimiyyət ehtirası və ata məhəbbəti // − Bakı: Bakı Universitetinin xəbərləri, Humanitar elmlər seriyası, − 2020. № 2, − s. 40-46.
13. Hüseyn Cavid dramaturgiyasında “atalar və oğullar” milli-mənəvi dəyərlər kontekstində (“Maral” və “Uçurum” pyesləri əsasında) // 4th international Nowruz conference on scientific research, − Karabagh: − 18-21 March, − 2021, − p. 193-199.
14. “Atalar və oğullar” probleminin folklorda və klassik ədəbiyyatda ənənələri // I Uluslarası Türkbilim Öğrenci Kurultayı Bildiriler kitabı, Uluslararası Türk Akademisi: Nur-Sultan, 4-5 sentyabr, − 2021, − s. 174-182.

Dissertasiyanın müdafiəsi 18 aprel 2022-ci il tarixində saat 12$^{00}$ Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri, İstiqlaliyyət küçəsi 53. AZ 1001. AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 18 mart 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 11.03.2022

Kağız formatı: A5

Həcm: 36007

Tiraj: 100